

**Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.**
**Heydər Əliyev**


# Azərbaycan işıqları

"Azərenerji" ASC-nin orqanı | 28 YANVAR 2016-cı il CÜMƏ AXŞAMI | № 2 (1128) | www.azerenerji.gov.az


***"...2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütövlükdə tarixi hadisədir və tarixi nailiyyətdir. Bu illər ərzində ölkəmiz sürətlə inkişaf edib. Biz infrastruktur layihələrini icra etmişik. Bu illər ərzində - 2004-cü ildən bu günə qədər ölkəmizdə 25 elektrik stansiyası tikilmişdir. Ümumi elektrik stansiyalarının sayı 34-dür, 25-i son 12 il ərzində tikilmişdir".***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## RƏSMİ XRONİKA

**20 yanvar**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.
- Prezident İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün xanımı Mehriban Əliyeva ilə birlikdə İsveçrəyə işgüzar səfərə gedib.
- Prezident İlham Əliyev Davosda «Lazard Avropa» şirkətinin vitse-prezidenti Metyu Piqas ilə, Rusiyanın «LUKOIL» şirkətinin prezidenti Vahid Ələkbərov ilə, Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə, Böyük Britaniyanın BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə, İran İslam Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Məhəmməd Nəhavəndian ilə görüşüb.

**21 yanvar**

- Prezident İlham Əliyevin Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə, «Microsoft Corporation» şirkətinin vitse-prezidenti xanım Syuzan Hauser ilə, «Procter and Gamble Europe» şirkətinin prezidenti Geri Edrü Kumbe ilə, İsrailin Baş naziri Benyamin Netanyahu ilə, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Navaz Şərif ilə görüşü olub.
- Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Yeni enerji tarazlığı» mövzusunda sessiyada iştirak edib. Sessiyada iqtisadi əlaqələrin daha da genişləndirilməsi, qarşılıqlı investisiya qoyuluşu, hərbi sahədə əməkdaşlıq və digər məsələlər müzakirə olunub.
- Prezident İlham Əliyev Azərbaycan mədəniyyəti üçün mühüm əhəmiyyətli Şəki şəhərinin tarixi görünüşünü və memarlıq üslubunu qoruyub saxlamaq, onu gələcək nəsillərə çatdırmaq məqsədi ilə sərəncam imzalayıb.

**22 yanvar**

- Prezident İlham Əliyevin TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə, Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə, Norveçin xarici işlər naziri Borge Brende ilə, İsveçrə Konfederasiyasının Prezidenti Yohan Şnayder-Amman ilə, Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşü olub.
- Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumu çərçivəsində dünya iqtisadi liderlərinin «2016-cı il üçün mütləq xarakterli tövsiyələr» mövzusunda keçirilən qeyri-rəsmi toplantıda iştirak edib.

**25 yanvar**

- Prezident İlham Əliyev ATƏT Parlament Assambleyası sədrinin müavinləri Georgi Tseretelinin və Kent Harstedtin başçılıq etdiyi, ATƏT PA-nın baş katibi Roberto Montellanın daxil olduğu nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Natiq Ərziman oğlu Əmirovun Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi təyin edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycanda musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə Aftandil Eynulla oğlu İsrafilovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və «Leninqradın müdafiəsinə görə» medalı, «Leninqrad mühasirəsində yaşayan» döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləğinin 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılması haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev ünvanlı dövlət sosial yardımının maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulan məbləğin artırılması məqsədi ilə cari ilin dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə iyirmi milyon manat ayrılması barədə sərəncam verib.
- Prezident İlham Əliyev 2016-cı il fevralın 1-dən bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləğinin 40 manat, bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə isə həmin müavinətin məbləğinin 25 manat miqdarında müəyyən edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev «Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2013-cü il tarixli 3108 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 988; 2015, № 11, maddə 1339) ilə müəyyən edilmiş təqaüdlərin məbləğinin 2016-cı il fevralın 1-dən 10 faiz artırılması barədə sərəncam verib.

**26 yanvar**

- Prezident İlham Əliyev «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda iştirak edib. Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.

**27 yanvar**

- Prezident İlham Əliyev Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayteri və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskini qəbul edib.

# *Prezident İlham Əliyev:* "Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf edəcəkdir"

**"Azərbaycanda ictimai-siyasi sabitlik qorunur, təmin edilir. Bunun başlıca səbəbi xalq-iqtidar birliyidir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını müdafiə edir. Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları hər şeydən üstündür". Bu sözləri Prezident İlham Əliyev yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda bəyan edib.**




### Uğurlu inkişaf dinamikası saxlanılıb

Dövlətimizin başçısı giriş nitqində bildirib ki, 2015-ci ildə dünyada iqtisadi böhran daha dərinləşib. Dünya iqtisadiyyatı hələ ki böhrandan çıxa bilmir. Buna baxmayaraq, 2015-ci ildə Azərbaycanda bir çox məsələlər öz həllini tapıb, nəzərdə tutduğumuz bütün vəzifələr icra edilib. O qədər də asan olmayan geosiyasi vəziyyəti və dünya iqtisadi böhranını nəzərə alsaq, bu, bizim böyük uğurumuzdur. Çünki bizim bölgəmizdə qanlı toqquşmalar, müharibələr davam edir, yeni qarşıdurma ocaqları yaranır. Avropada həm iqtisadi böhran yaşanır, eyni zamanda, miqrantlarla bağlı vəziyyət gərginləşir. Öz evlərini, yaxınlarını, əmlakını itirmiş insanlar Avropaya pənah gətirirlər və onları orada nələrin gözlədiyi hamımızın gözü qarşısında baş verir. Əfsuslar olsun ki, bu miqrant böhranı Avropada radikal qüvvələrin güclənməsinə gətirib çıxarır. Bu da həm Avropa üçün, həm bizim üçün, həm də dünya üçün çox böyük təhlükədir.

Ölkə Prezidenti deyib ki, Azərbaycan 2015-ci ildə də bütün istiqamətlər üzrə uğurlu inkişaf dinamikasını saxlaya bilib, ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artıb. Azərbaycan beynəlxalq aləmdə çox fəal rol oynayır. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız uğurla davam edir. Üzv olduğumuz təşkilatlar çərçivəsində fəaliyyətimizi gücləndiririk. Bütün başqa təşkilatlarla da münasibətlərimizi qarşılıqlı hörmət əsasında qurmuşuq və bu münasibətləri dərinləşdirmək istəyirik.

### Azərbaycan demokratiya yolu ilə irəliləyir

"Keçən il demokratik inkişaf istiqamətində önəmli addımlar atılmışdır. Azərbaycan demokratiya yolu ilə inamla irəliləyir. Bu, bizim şüurlu seçimimizdir. Mən tam əminəm ki, köklü iqtisadi islahatlar və iqtisadi inkişaf demokratik prosesdən ayrı təmin oluna bilməz. Ona görə Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və aparılacaq. Keçən ilin sonunda parlament seçkiləri də bizim demokratiyaya nə qədər sadiq olduğumuzu bir daha sübut etdi. İştirak etmiş bütün müşahidəçilərin rəyinə görə parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir, Azərbaycan xalqının iradəsi və arzuları tam təmin edilmişdir. Seçkilərin nəticələri bizim son illər ərzində apardığımız siyasətimizə çox böyük dəstəkdir. Çünki mən bu seçkilərin nəticələrini belə qəbul edirəm: Azərbaycan xalqı bir daha bizim siyasətimizə öz böyük dəstəyini göstərmişdir. Buna görə mən Azərbaycan vətəndaşlarına minnətdaram və Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, dünyada baş verən bütün hadisələrə, böhranlara baxmayaraq, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir", - deyə ölkə rəhbəri bəyan edib.

Dövlətimizin başçısı deyib ki, keçən il bizim iqtisadi inkişafımız təmin edilib. Baxmayaraq ki, əvvəlki illərlə müqayisədə ümumi daxili məhsulun artması o qədər də böyük rəqəmlərlə ölçülmür, cəmi 1,1 faiz artıb. Ancaq indiki vəziyyətdə neftin qiymətinin dörd dəfə düşməsini nəzərə alsaq, bu, müsbət nəticədir. Ən müsbət nəticə isə ondan ibarətdir ki, qeyri-neft sənayemiz 8,4 faiz artıb. Bu onu göstərir ki, ölkəmizdə aparılan sənayeləşmə siyasəti öz bəhrəsini verir. Kənd təsərrüfatı sahəsi 6,6 faiz artıb. Bu, onu göstərir ki, hətta böhranlı illərdə də biz inkişaf edirik. Bu il icra ediləcək layihələr imkan verəcək ki, 2016-cı ildə də ölkə iqtisadiyyatı inkişaf etsin, yeni iş yerləri, sənaye müəssisələri yaradılsın və biz bu dinamikanı nəinki saxlaya, hətta sürətləndirə biləK.

### 2015 – enerji sektorunda yaddaqalan il

2015-ci ilin enerji sektorunda yaddaqalan il olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Cənub" qaz dəhlizinin icrası istiqamətində çox önəmli addımlar atılmışdır. Bildiyiniz kimi, ilin əvvəlində "Cənub" qaz dəhlizinin Məşvərət Şurasının Bakıda birinci iclası keçirilmişdir. Tədbirdə bu dəhlizin icrasında iştirakçı olan ölkələrin yüksək vəzifəli şəxsləri iştirak edirdilər. Konkret proqram təsdiq olunmuşdur. Birgə Bəyannamə qəbul edilmişdir ki, orada da Azərbaycanın bu dəhlizin reallaşmasında xüsusi və aparıcı rolu qeyd edilmişdir. "Cənub" qaz dəhlizi Avropa üçün enerji təhlükəsizliyi layihəsidir. Bizim üçün isə bu dəhlizin reallaşması əlavə siyasi, maliyyə, iqtisadi imkanları yaradacaqdır".

Prezident İlham Əliyev deyib ki, keçən il Azərbaycan özünü dünyaya çox güclü tranzit ölkəsi kimi təqdim edə bilib. Bu gün Şərqdən Qərbə, Şimaldan Cənuba gedən yollar Azərbaycandan keçir ki, bu da dünya üçün yenilikdir. Artıq nəinki Orta Asiyadan, hətta Çindən, Cənubi Koreyadan Avropaya Azərbaycan ərazisindən yüklər getməyə başlayıb.

### Sosial proqramlar icra edilib

"2015-ci ildə bütün sosial proqramlar icra edilmişdir. Mən bir daha demək istəyirəm, baxmayaraq ki, bu il də bizim maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək. Əksinə, bildiyiniz kimi, bu il maaşlar, pensiyalar, sosial müavinətlər qaldırılmışdır", - deyən ölkə rəhbəri vurğulayıb ki, bu, bizim sosial siyasətimizin əsasını təşkil edir.

"Bir sözlə, hesab edirəm ki, keçən il ölkəmiz üçün uğurlu olmuşdur. Dünya iqtisadiyyatı stress vəziyyətindədir. Neftin qiyməti dörd dəfə düşmüşdür. Biz axıra qədər çalışırdıq ki, manatın məzənnəsini sabit saxlayaq və buna müəyyən dərəcədə nail ola bilmişik. Ancaq neftin qiymətinin dörd dəfə aşağı düşməsi və qonşu ölkələrdə milli valyutaların 100 faizdən çox aşağı düşməsi imkan vermədi ki, biz manatın məzənnəsini istədiyimiz səviyyədə saxlaya biləK. Ancaq o da həqiqətdir ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və milli valyutamızı süni şəkildə istədiyimiz səviyyədə saxlaya bilmərik", - deyən ölkə rəhbəri qeyd edib ki, görülmüş tədbirlər nəticəsində sosial müdafiə paketinin təqdim edilməsi, qiymətlərə nəzarət, eyni zamanda, çox dərin iqtisadi islahatların aparılması bizə bu vəziyyətdən də uğurla çıxmağa imkan verəcək.

### 12 ildə 25 elektrik stansiyası tikilib

"Demək istəyirəm ki, 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütövlükdə tarixi hadisədir və tarixi nailiyyətdir. Bu illər ərzində ölkəmiz sürətlə inkişaf edib. Biz infrastruktur layihələrini icra etmişik. Bu illər ərzində - 2004-cü ildən bu günə qədər ölkəmizdə 25 elektrik stansiyası tikilmişdir. Ümumi elektrik stansiyalarının sayı 34-dür, 25-i son 12 il ərzində tikilmişdir", - deyə Ölkə Prezidenti bəyan edib.

Prezident İlham Əliyev bildirib ki, 2004-cü ildə rayonlarda demək olar ki, qaz yox idi. Bu gün isə Azərbaycanda qazlaşdırma 90 faizə yaxınlaşır, bölgələrdə isə bütün şəhərlər 100 faiz qazlaşdırılıb. Son 12 il ərzində on min kilometrdən çox yol çəkilib. İçməli su layihələri bir çox şəhərlərdə icra edilib. Bu layihələr davam edəcək. Bütün şəhərlərdə əhaliyə 24 saat fasiləsiz, təmiz içməli su verilməlidir. Bununla bərabər, çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular yaradılıb. Sosial sahədə də çox böyük işlər görülüb. 12 il ərzində üç minə yaxın məktəb, 600-ə yaxın xəstəxana tikilib, təmir edilib. Bölgələrdə 41 Olimpiya Mərkəzi tikilib. Maaşlar təxminən beş dəfə, pensiyalar yeddi dəfə artıb. 89 köçkün qəsəbəsi tikilib, 225 min insan yeni evlərə, mənzillərə köçürülüb. Biz sahibkarlığın inkişafına böyük dəstək vermişik. Güzəştli şərtlərlə 1,7 milyard manat kreditlər verilib. Azərbaycana 200 milyard manat sərmayə qoyulub ki, onun yarısı xarici sərmayədir.

*(Ardı 2-ci səhifədə)*

***FAKT... HADİSƏ... XƏBƏR...***

## İspaniyalı deputat AŞPA-nın yeni sədri...

**Yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının plenar iclasında ispaniyalı Pedro Aqramunt qurumun sədri seçilib.**

Pedro Aqramunt AŞPA-da Avropa Xalq Partiyası qrupunun sədri olub. Assambleya sədri vəzifəsinə namizədlər qurumdakı siyasi fraksiyalar tərəfindən irəli sürülür. Siyasi qruplar arasında razılaşdırılmış rotasiya prinsipinə dair "centlmen sövdələşməsi"nə əsasən bu dəfə növbə P.Aqramuntun rəhbərlik etdiyi Avropa Xalq Partiyası qrupunun idi. Onun bu vəzifəyə namizədliyi ötən il öz qrupu tərəfindən irəli sürülüb.

İspaniyanın Valensiya bölgəsindən deputat seçilmiş senator P. Aqramunt 2000-ci ildən etibarən AŞPA-da təmsil olunur.

## Azərbaycanlı deputat AŞPA komitəsinin sədri seçilib

**Yanvarın 26-da Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası çərçivəsində qurumun miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin iclası keçirilib.**

AZƏRTAC-ın xüsusi müxbirini verdiyi məlumata, iclasda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarova bu komitənin sədri seçilib.

İlk dəfədir ki, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü qurumun komitə sədri seçilir.

## BU NÖMRƏDƏ




Azərbaycan İES: ötən ilin yekunları 3



Gəncliyə qayğı gələcəyə qayğıdır 4


## IV Qlobal Bakı Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Bakı şəhərində "Çoxqütblü dünyaya doğru" IV Qlobal Bakı Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib.**

AZƏRTAC xəbər verir ki, sərəncamda Tədbirlər Planının icrasına məsul qurumlara Forumla bağlı tədbirlərin yerinə yetirilməsi tapşırılır.

"Çoxqütblü dünyaya doğru" IV Qlobal Bakı Forumu martın 10-11-də keçiriləcək.

## Bir sıra ölkələrin vətəndaşları üçün sadələşdirilmiş viza rəsmiləşdirilməsi təmin ediləcək

**Azərbaycan Prezidentinin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında verdiyi tapşırıqların icrası ilə əlaqədar olaraq, insanlararası təmasları artırmaq, turizm səfərlərini və işgüzar əlaqələri təşviq etmək məqsədilə Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Koreya Respublikası, Malayziya və Sinqapur vətəndaşlarına 2016-cı il fevralın 1-dən etibarən Azərbaycanın bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsi təmin ediləcək.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu qaydalar 2015-ci il noyabrın 10-dan etibarən Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşlarına şamil edilir.

## Fevralın 1-dən Bakı-Yalama-Bakı elektrik qatarı fəaliyyətə başlayacaq

**Sərnişinlərin çoxsaylı arzu və təklifləri nəzərə alınaraq, fevralın 1-dən 611/612 nömrəli Bakı-Yalama-Bakı elektrik qatarı fəaliyyətə başlayacaq.**

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən AZƏRTAC-a bildirilib ki, həmin tarixdən Bakı-Xaçmaz-Keşlə marşrutu ilə işləyən 6803/6804 nömrəli elektrik qatarının fəaliyyəti dayandırılacaq.

611/612 nömrəli Bakı-Yalama-Bakı elektrik qatarı hər gün saat 20:00-da Bakı-sərnişin stansiyasından yola düşəcək, saat 01:10-da Yalama stansiyasına çatacaq, 03:30-da Yalama stansiyasından yola düşəcək və saat 09:15-də Bakı-sərnişin stansiyasına çatacaq.

aktual

# *Prezident İlham Əliyev:* "Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf edəcəkdir"

*(Əvvəli 1-ci səhifədə)*

"Biz özümüz-özümüzü təmin edirik. Düzdür, keçən il çətin il olmuşdur. Amma nə olar, biz çətinliklə də üzləşməliyik. 1990-cı illərdən çətin dövr olmamışdır. Olur, indi dünya iqtisadiyyatı dövri xarakter daşıyır. Biz uzun illər ərzində yüksələn xətlə getmişik. İndi dünya iqtisadiyyatında bizdən asılı olmayan səbəblərə görə tənəzzül yaşanır. Biz də dünya iqtisadiyyatının bir parçasıyıq. Biz axı özümüzü dünya birliyindən, iqtisadiyyatından təcrid etməmişik. Biz inteqrasiya etmişik, açıq bazar siyasəti, liberal iqtisadi siyasət aparırıq. Ona görə bizə də təsir edir. Eybi yoxdur, biz inamla inkişaf edəcəyik. Biz qarşıda duran bütün vəzifələri icra etməliyik", - deyən Ölkə Prezidenti qeyd edib ki, Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr verib. Təsadüfi deyil ki, bu il Bakıda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcək. Bu, qlobal forumdur, BMT-nin himayəsi altında keçiriləcək. Budur bizim uğurlarımız, töhfəmiz, reallıqlarımız.



**Bütün infrastruktur layihələri icra edilməlidir**

Dövlətimizin başçısı yekun nitqində bildirib ki, sahibkarlığın inkişafı üçün çox işlər görülüb. Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsi - 80 faizdən çoxu özəl sektorda formalaşır. Ancaq yeni dövr yeni yanaşmalar tələb edir. Ona görə indiki şəraitdə sahibkarlığı daha da genişləndirmək, sahibkarlara daha da yaxşı şərait yaratmaq, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir.

"Bu ilin planları ilə bağlı ilk növbədə demək istəyirəm ki, bütün sosial proqramlar tam icra ediləcək. Bildiyiniz kimi, maaşlar, pensiyalar və sosial müavinətlər qaldırıldı. Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir", - deyən Ölkə Prezidenti qeyd edib ki, bazar iqtisadiyyatı Azərbaycanda uğurla inkişaf edir. Ancaq islahatları apararkən biz hər zaman sosial məsələləri yadda saxlamalıyıq. Unutmamalıyıq ki, biz xalq üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Prezident İlham Əliyev deyib ki, bu il regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələri həyata keçirilməlidir. İçməli su layihələri icra edilməlidir. Son illər ərzində 1500-ə yaxın subartezian quyusu qazılıb. Keçən ilin sonunda bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan əlavə 10 milyon manat ayrılıb. Subartezian quyularının qazılması prosesi davam etdirilməlidir. Sosial infrastruktur layihələri icra ediləcək. Həm Bakıda, həm böyük və həm də kiçik şəhərlərdə məktəblərin, tibb mərkəzlərinin, xüsusilə uşaq bağçalarının tikintisinə böyük ehtiyac var.

**12 ildə 1 milyon 500 min iş yeri açılıb**

"Yeni iş yerlərinin yaradılması bu il xüsusi əhəmiyyət kəsb edir. Çünki qeyd etdiyim kimi, bəzi iş yerləri bağlanır. Son 12 il ərzində 1 milyon 500 min iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir. Ancaq bu illər ərzində Azərbaycanın əhalisi artmışdır. Əlbəttə ki, bu da inkişafın əlamətidir. 2003-cü ildə Azərbaycan əhalisi 8,4 milyon idisə, bu il 9,7 milyondur. Yəni, əhali 1 milyon 300 min nəfər artmışdır. Bu, bizim böyük üstünlüyümüzdür və inkişafın əlamətidir", - deyə ölkə rəhbəri bəyan edib.

**İnhisarçılığa yol vermək olmaz!**

Dövlətimizin başçısı deyib ki, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlər aparılır, müvafiq göstərişlər, tapşırıqlar, sərəncamlar verilib. Bu sahə mütləq daim diqqət mərkəzində olmalıdır. Beynəlxalq maliyyə qurumları bu istiqamətdə apardığımız fəaliyyəti yüksək qiymətləndirir, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı yüksək yerlərə layiq görür. Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Biz dünya miqyasında 40-cı yerdə, MDB məkanında birinci yerdəyik.

"Biz mütləq daxili bazarımızı, yerli istehsalı qorumalıyıq, bununla bərabər, inhisarçılığa yol verməməliyik. Bu da çox ciddi məsələdir. Çünki, əlbəttə, mən çox istəyirəm ki, Azərbaycan məhsulları daha da çox istehsal olunsun, biz idxaldan asılılığı daha da azaldaq, iş yerləri yaradılsın, ixrac qabiliyyətli məhsullar istehsal edək. Ancaq bununla bərabər, əgər biz idxal mallarına süni əngəllər qoysaq, bu zaman rəqabət olmayacaq. Amma rəqabət əsasdır. Hər bir ölkənin inkişafı üçün azad, ədalətli, sərbəst rəqabət əsas şərtdir. Ona görə, burada iki amil nəzərə alınmalıdır. Həm qiymətlərin tənzimlənməsi, bütün süni maneələr, idxal qarşısında duran maneələr aradan götürülməlidir, eyni zamanda, daxili istehsal qorunmalıdır. Ona görə, müvafiq qurumlar çox fəal işləməlidirlər ki, bu iki amili təmin etsinlər", - deyən ölkə rəhbəri qeyd edib ki, yerli istehsal, idxaldan asılılığın azaldılması bizim gələcək dayanıqlı inkişafımızın əsas məsələsidir. Ancaq, eyni zamanda, inhisarçılığa da yol vermək olmaz.

**Bank sektorunun fəaliyyətini sağlamlaşdırmalıyıq**

Prezident İlham Əliyev bildirib ki, investisiyaların təşviqi sistemi artıq yaradılıb, tətbiq edilir. Biz xarici investisiyaları daha da çox cəlb etməliyik. İnvestisiyaların təşviqi məsələsi burada mühüm rol oynayır. Azərbaycanda investisiya iqlimi müsbətdir. Əgər belə olmasaydı xarici firmalar Azərbaycana 100 milyard dollar investisiya qoymazdılar. Biz çalışmalıyıq ki, indi xarici sərmayəni qeyri-neft sektoruna, ixracyönümlü məhsulların istehsalına yönəldək.

"Bank sektorunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görüləcək. Əmanətlərin sığortalanması məsələsinə baxılıb. Hesab edirəm ki, bu, dövlət tərəfindən atılan çox ciddi addımdır. Ancaq bank sektorunun sağlamlaşdırılması prosesi daha sürətlə getməlidir. Burada inkişaf üçün çox böyük imkanlar var. Tələblərə, meyarlara cavab verməyən, öz fəaliyyətini qura bilməyən, böyük nöqsanlar buraxan banklar bizim bank sektorumuzda fəaliyyət göstərə bilməz. Bu məsələ ilə bağlı bir neçə dəfə hökumət yığışıbdır, məsələ qoyulubdur. Ancaq əfsuslar olsun ki, məsələ çox ləng gedir", - deyən Ölkə Prezidenti vurğulayıb ki, biz bank sektorunu sağlamlaşdırmalıyıq. Elə etməliyik ki, bank sektoru Azərbaycan iqtisadiyyatına daha da çox fayda versin.

**Kənd təsərrüfatı 6,6 faiz artıb**

"Keçən il Azərbaycanda "Kənd təsərrüfatı ili" idi. Kənd təsərrüfatı 6,6 faiz artmışdır. Bu, çox yaxşı göstəricidir. Məhsuldarlıq artmışdır, xüsusilə taxılçılıqda. İri fermer təsərrüfatlarının fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Orada məhsuldarlıq orta məhsuldarlıqdan təxminən iki dəfə çoxdur. Ona görə, bu, bir nümunədir", - deyən dövlətimizin başçısı vurğulayıb ki, biz iri fermer təsərrüfatlarının yaradılmasını bu il də davam etdirməliyik. Bu, bizə idxaldan asılılığı azaltmağa imkan verəcək. Biz kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya layihələrini icra etmişik. Taxtakörpü və Şəmkirçay su anbarları inşa edilib, Samur-Abşeron kanalının yenidən qurulması layihəsi təmin edilib, Ceyranbatan gölünün təmizlənməsinə, müasir təmizləmə qurğularının yaradılmasına nail olunub. Keçən il kənd təsərrüfatının inkişafı daha çox bitkiçiliklə bağlı idi. Biz pambıqçılıqla daha ciddi məşğul olmalıyıq. Həmçinin tütünçülük və çayçılıq da sürətlə inkişaf etməlidir.

"Turizmin inkişafı daha sürətlə getməlidir. Xüsusilə, Avropa Oyunlarından sonra Azərbaycana dünyada maraq daha da artdı. Biz bundan istifadə etməliyik. Nə qədər çox turist gəlsə, Azərbaycanı o qədər də çox adam tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər. Son 12 il ərzində Azərbaycanda 300-ə yaxın mehmanxana tikilmişdir. Bizim indi dünya səviyyəli kurortlarımız var – Şahdağ kurortu, Naftalan kurortu. Qəbələ beynəlxalq kurort mərkəzinə çevrilibdir və Qalaaltı müalicəvi kurort mərkəzidir. Naxçıvanda Duzdağ kurort mərkəzi yaradılıbdır", - deyən ölkə rəhbəri qeyd edib ki, turistləri cəlb etmək üçün daha fəal olmalıyıq.

Korrupsiyaya və rüşvətxorluğa qarsı mübarizənin öz bəhrəsini verdiyini vurğulayan Ölkə Prezidenti deyib ki, korrupsiya bütün ölkələr, o cümlədən Azərbaycan üçün böyük bəladır. Biz həm cəza tədbirlərini tətbiq edirik, inzibati addımlar atılır, həm də institusional tədbirlər görülür. Korrupsiya, rüşvətxorluq üçün meydan daralır, yeni ictimai xidmətlər yaradılır. "ASAN xidmət" iki il ərzində artıq yeddi milyon insana xidmət göstərib. Bu yeddi milyon insan bu iki il ərzində "ASAN xidmət"də korrupsiyanın nə olduğunu görməyib. İnstitusional tədbirlər çox səmərəlidir. Bununla bərabər, korrupsiyaya qarşı cəza tədbirləri də tətbiq ediləcək, edilir.

**Yerli məhsullara üstünlük verilməlidir**

"Dövlət məmurları və onların ailə üzvləri özlərini təvazökar aparmalıdırlar. Xalqla bir yerdə olmalıdırlar, yekəxanalıq göstərməməlidirlər. Hesab etməməlidirlər ki, onların hansısa xüsusi statusu var. Onların statusu var - insanlara xidmət etmək, insanların problemlərini həll etmək, onlara qayğı göstərmək. İnsanları incitməməlidirlər, əksinə, qayğı, diqqət göstərməlidirlər və kömək etməlidirlər. Dediyim bütün bu amillər onların fəaliyyətinə verilən qiymətdə əsas rol oynayacaq.

Dövlət qurumları. Burada bəzi çıxışlarda səsləndi - indi Azərbaycanda yerli istehsal nə qədər inkişaf edir, o cümlədən mebel istehsalı. Ancaq bizim dövlət idarələrində yerli mebeldən istifadə edirlərmi? Yox. Hər bir kiçik məmur istəyir ki, onun kabinetində xarici mebel olsun. Nə üçün? Bu, nə ədabazlıqdır. Bizdə gözəl mebel istehsal olunur. Təkcə bu, "Embawood" şirkəti deyil. Bizdə bəlkə də mebel istehsal edən onlarla şirkət var. Amma di gəl ki, bizim yüksək və kiçik vəzifəli dövlət məmurlarımız onu bəyənmirlər. Özü də onun keyfiyyəti heç bir başqa mebeldən fərqlənmir. Amma deyir ki, yox, bu, Azərbaycan malıdır, mən bunu özümə rəva bilmirəm. Mənim üçün gərək İtaliya, Rumıniya mebeli olsun. Buna son qoyulmalıdır! Bütün dövlət məmurlarının kabinetlərində bundan sonra yerli mebellər olmalıdır. Bütün təftiş edən orqanlar – Hesablama Palatası, Maliyyə Nazirliyi və digər orqanlar nəzarət etməlidirlər", - deyən Prezident İlham Əliyev qeyd edib ki, söhbət təkcə mebeldən getmir. Digər mal, materiallar alınanda da nədənsə bizdə xarici mallara üstünlük verilir. Ona görə, bu sahə çox ciddi nəzarət altında olmalıdır. Beləliklə, biz israfçılığa yol verməyəcəyik, xərclər azalacaq, valyuta xaricə getməyəcək, yerli istehsal güclənəcək. Bu göstəriş hamıya aiddir. İndi o vəziyyət deyil ki, kimsə özü üçün xüsusi bir avtomobil alsın, özü də dövlət hesabına. Bizim Naxçıvanda avtomobil zavodumuz var, dövlət qurumları avtomobili oradan alsınlar. Hökumət bu sahəyə çox ciddi diqqət verməlidir. Harada pozuntular olsa, dərhal ölçü götürüləcək.

Prezident İlham Əliyev dərin məzmunlu nitqini bu sözlərlə yekunlaşdırıb: "Mən dəfələrlə demişəm, elə işləməliyik ki, sanki bizdə neft-qaz resursları yoxdur. Əslində, indi neftin qiyməti belə vəziyyətə gətirib çıxarıb ki, elə bil doğrudan da belədir. Sözün düzü, biz hesablayırdıq ki, postneft dövrü Azərbaycanda 30-cu, 40-cı illərdən sonra başlayacaq. Çünki bizim bütün proqnozlarımız onu göstərir ki, hələ onilliklər bundan sonra Azərbaycanda neftin hasilatı təxminən sabit qalacaqdır. İki-üç ildən sonra reallaşacaq "Cənub" qaz dəhlizinin faydası da, əlbəttə ki, müəyyən dərəcədə 40-cı ildən sonra neftin tənəzzülünün qarşısını alacaq. Çünki biz bazara böyük qazla çıxacağıq.

Ancaq neftin qiyməti dörd dəfə aşağı düşdü və biz artıq bu gün postneft dövründə yaşayırıq. Biz qısa zaman çərçivəsində bu işləri görürük ki, insanlar bunu hiss etməsinlər. Ona görə bundan sonra islahat, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması - bütün bu amillər bizim dayanıqlı inkişafımızı təmin edəcək. Mən əminəm ki, Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf edəcəkdir. Biz müstəqillik yolu ilə, inkişaf yolu ilə gedirik. Bu yolda sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram".

## Birinci xanım Mehriban Əliyeva "2015-ci ilin adamı" elan olunub

♦ **Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı "2015-ci ilin adamı" elan edib.**

ANS PRESS-dən AZƏRTAC-a verilən məlumata görə, Mehriban Əliyeva bu mükafata Təşkilat Komitəsinin sədri kimi birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki xidmətlərinə, Azərbaycanın müsbət imicinin dünyada tanınması istiqamətində göstərdiyi genişmiqyaslı fəaliyyətə, Azərbaycan və dünya mədəniyyətinin qarşılıqlı inteqrasiyası üçün gördüyü işlərə, ölkədə multikulturalizm mühitinin formalaşdırılmasına verdiyi töhfələrə və ardıcıl xeyriyyəçilik fəaliyyətinə görə layiq görülüb.

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu 2005-ci ildə də Mehriban Əliyevaya "İlin adamı" mükafatını təqdim etmişdi.

Azərbaycanda "İlin adamı" mükafatı 2001-ci ildə Milli Qəhrəman Çingiz Mustafayev adına Fond və ANS Şirkətlər Qrupu tərəfindən təsis edilib. Bu ada Azərbaycan Respublikasının müstəqilliyi, onun çiçəklənməsi, müsbət imicinin formalaşdırılması naminə yüksək xidmətləri ilə seçilən şəxslər layiq görülür.

## *Mehriban xanım Əliyeva:* "Azərbaycan dünyada qlobal multikulturalizm mərkəzlərindən biri kimi tanınır"

♦ **Yanvarın 21-də İsveçrənin Lozanna şəhərində Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. İclasda "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilib.**



Mehriban xanım Əliyeva mərasimdə çıxış edərək, səmimi qarşılanmaya görə təşəkkürünü bildirib, Avropa Olimpiya Komitələrinin yüksək mükafatını qəbul etməyin onun üçün böyük şərəf və qürur olduğunu vurğulayıb.

Mehriban xanım Əliyeva deyib ki, birinci Avropa Oyunları Avropa idmanı və Azərbaycan üçün tarixi hadisə oldu: "Təşkilat Komitəsinin sədri olaraq mən çox xoşbəxtəm ki, biz bu Oyunları kifayət qədər yüksək səviyyədə keçirməyə müvəffəq olduq. Bizim hazırlıqlara cəmi 2 il yarım vaxtımız var idi. Lakin Azərbaycan vətəndaşları, Oyunların iştirakçıları və qonaqların hamısı Oyunların həqiqətən uğurla keçdiyi qənaətindədir. Biz çalışdıq. Mən ümid edirəm və inanıram ki, biz 6 mindən çox Avropa idmançısı və minlərlə qonaq üçün dostluq və həmrəylik mühiti yarada bildik. Bu 17 gün ərzində biz bir ailə kimi olduq və mən əminəm ki, bu Oyunlar tarixdə təkcə ilk Avropa Oyunları kimi deyil, həm də dostluq, həmrəylik və qarşılıqlı anlaşma üzrə beynəlxalq forum kimi qalacaq. Müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar əsrlər boyu Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşayıblar. Bu cür mühitin yaradılması xalqlar və ölkələr arasında əlaqələri, münasibət və qarşılıqlı hörməti möhkəmləndirir. Mən əminəm ki, bu gün dünyaya lazım olan məhz budur"

Birinci xanım bildirib ki, bu gün Azərbaycan dünyada qlobal multikulturalizm mərkəzlərindən biri kimi tanınır.

Daha sonra birinci Avropa Oyunlarından bəhs edən filmin nümayişi olub.

ƏMƏKDAŞLIQ

## BMT baş katibinin Azərbaycana səfəri gözlənilir

♦ **Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının (BMTSA) aprel ayında Bakıda keçiriləcək 7-ci Qlobal Forumunun Təşkilat Komitəsinin 2-ci iclası keçirilib.**

Mədəniyyət və Turizm Nazirliyinin informasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, Təşkilat Komitəsinin sədri Əbülfəs Qarayev çıxış edərək bildirib ki, prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, BMT-nin Sivilizasiyalar Alyansı ilə ikitərəfli sənədlər təsdiq olunub və qüvvəyə minib.

Artıq Forumun loqotipi təsdiqlənib və veb-saytı (*baku.unaoc.org*) istifadəyə verilib.

Nazir 50-dək ölkənin rəhbərlərinə dəvətnamələrin göndəriləcəyini bildirib. Qeyd olunub ki, forumda yüksək səviyyəli dövlət nümayəndələrinin iştirakı nəzərdə tutulur. İki gün ərzində 40 tədbir keçiriləcək və bunun üçün lazımi şərait yaradılıb.

Nazir qeyd edib ki, Forum çərçivəsində aprelin 25-də gənclərlə bağlı tədbirdə BTM-nin baş katibi Pan Gi Munun da iştirak etməsi gözlənilir.

Bildirilib ki, fevralın 20-də isə BMT nümayəndə heyətinin Bakıya səfəri nəzərdə tutulur.

DİPLOMATİYA

## Dünya erməniləri Fransada növbəti dəfə rüsvay oldular

♦ **Son həftənin dünya erməniləri üçün "uğursuz həftə" olduğunu demək bu barədə heç nə deməmək kimidir. Son həftə dünya erməniləri üçün əsl fəlakət olub!**

AZƏRTAC-ın müxbiri bu barədə yazır ki, əvvəlcə, yanvarın 20-də Fransa Konstitusiya Şurası "Gayssot Act" qanununun (Holokostun inkar edilməsinin kriminallaşdırılması barədə qanunun) guya "söz azadlığını boğan" bir sənəd kimi tanınması barədə bu ölkənin erməni təşkilatlarının qaldırdığı iddianı rədd edib (bax: *azertag.az/ru/ xeber/921822*). Fransa Femidası Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) çıxardığı nəticəni bir daha təsdiqləyib ki, Holokost faktı və qondarma "1915-ci il soyqırımı" barədə fikir müxtəlif məsələlərdir və onların inkar edilməsinə fərqli münasibət tələb olunur. Holokost məhkəmə qaydasında müəyyən edilmiş soyqırımı faktıdır. Buna görə də onun inkar edilməsi kriminallaşdırılıb. 1915-ci ildə Şərqi Anadoluda baş vermiş hadisələrin müxtəlif və ziddiyyətli yozumları isə rəylər spektridir və bu rəylərin sərbəst şəkildə söylənilməsi Avropa İnsan Haqları Konvensiyasının "İfadə azadlığı" adlı 10-cu maddəsi ilə təmin edilib. Sadə dildə desək, "erməni soyqırımı" fakt deyil. Bu mənada Fransa Konstitusiya Şurasının mövqeyi AİHM-in qəti verdiktinə tamamilə uyğundur.

Altı gün sonra elə həmin Fransanın Strasburq şəhərində (yeri gəlmişkən, Amal Kluninin uğursuz komandası AİHM-də məğlubiyyət acısını məhz bu şəhərdə dadmalı olub) ermənilərin burnuna növbəti ağrıdıcı zərbə dəydi. Avropa Şurası Parlament Assambleyası (AŞPA) bosniyalı deputat Melitsa Markoviçin "Azərbaycanın sərhədyanı regionlarının qəsdən sudan məhrum edilməsi" adlı məruzəsi üzrə 2085 (2016) nömrəli qətnamə qəbul etdi (*bax: azertag.az/ru/xeber/921919*). Bu sənədin 4-cü bəndində "Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik digər ərazilərinin işğal edilməsindən" bəhs olunur, 6-cı bənddə isə təsdiqlənir ki, Sərsəng su anbarı "Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində" yerləşir. Sənədin 7.1-ci bəndində Ermənistandan öz silahlı qüvvələrinin göstərilən regiondan çıxarılması tələb olunur, 8-ci bənddə isə Ermənistan parlamentinin nümayəndə heyətini bu məsələdə AŞPA ilə lazımınca əməkdaşlıq etməməsi pislənilir.

İstər Ermənistan parlamentinin yüksək vəzifəli nümayəndələrinin Avropa paytaxtlarına səfərləri, istərsə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatı, hətta AŞPA-nın bizə dost olan deputatlarının verdiyi məlumata görə, onların erməni həmkarlarının həmin qətnamənin "əleyhinə" səs verməyə görə 1000 avrodan 5000 avroya qədər pul təklif etmələri bu sənədin qəbul edilməsinin qarşısını ala bilməyib. Amma ermənilərin bütün bu "resursları" başqa bir sənədin - britaniyalı deputat Uolterin məruzəsinə dair qətnamənin qəbul edilməsinin qarşısını almaq üçün kifayət edib. Lakin Assambleya tərəfindən Sərsəng su anbarına dair qəbul edilmiş ikinci qətnamədə bizim üçün zəruri olan və erməniləri dəhşətə gətirən Uolter qətnaməsinin bütün ifadələrini faktiki olaraq təkrarlanmasını nəzərə alsaq, yalnız bunu demək lazımdır ki, bizim üçün gərəkli ifadələrin təsbit edildiyi qətnamənin AŞPA sənədləri sırasına daxil edilməsinin qarşısını almaq üçün Yerevanın göstərdiyi bütün səylər hədər olub. Azərbaycan üçün bu iki qətnamədən birinin qəbul edilməsi vacib idi. Bakının seçdiyi taktika çox gözəl nəticə verdi – oxşar şəkildə dürüst ifadə edildiyi iki məruzə irəli sürüldü və onlardan biri – başlığı daha sərrast olan sənəd ön plana çəkilərək bütün zərbəni öz üzərinə qəbul etdi və ikinci, faktiki olaraq mühüm terminoloji elementlərin təkrarlandığı ehtiyat sənəd qəbul edildi. Bu incə taktiki gediş Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğal olunmasından bəhs edilən və Ermənistanın öz qoşunlarını bölgədən dərhal çıxarması tələb edilən növbəti qətnamənin qəbul edilməsi ilə nəticələndi. Bu, Azərbaycanın daha bir uğurudur. Belə sənədlərin sayının iki deyil, bir olmasına gəldikdə isə, Allah xatirinə, qoy belə olsun. 1:0 hesabı da qələbədir, 2:0 hesabı da. Bizim üçün əhəmiyyətlisi odur ki, ermənilər Sərsəng su anbarına dair qətnamə şəklində qolu öz qapılarından buraxdılar, lakin anti-Azərbaycan ruhlu qətnamə şəklində cavab qolu vura bilmədilər. Əslində, vacib olan məqam budur. Belə çıxır ki, həmsədrlər də nahaq yerə vurnuxurlarmış.

linkə istinad etməklə Fransa Konstitusiya Şurasının qərarı ilə, AŞPA-nın saytında isə Assambleyanın həmişəlik tarixə düşmüş 2085 (2016) nömrəli qətnaməsi ilə tanış ola bilərsiniz: *http://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewPDF.asp? FileID=22429&lang=en.*

Beləliklə, bu il ermənilər üçün uğursuz başlanıb...

MÖVQE

## Macarıstanlı deputat AŞPA-da Ermənistanı işğalçılıqda ittiham edib

♦ **Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində Azərbaycanla bağlı məruzələrin müzakirəsi zamanı Macarıstanı AŞPA-da təmsil edən Daha Yaxşı Macarıstan Uğrunda – Yobbik partiyasının sədr müavini Marton Cöncöşi ölkəmizin haqlı mövqeyini dəstəkləyən bəyanatla çıxış edib.**

AZƏRTAC-ın müxbirinin verdiyi məlumata görə, M.Cöncöşi Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağda və ətraf rayonlarda həyata keçirilən işğalçılıq siyasətindən, dinc əhaliyə qarşı vəhşiliklərdən danışıb, münaqişə nəticəsində Azərbaycanın böyük ərazi itkisinə məruz qaldığını və humanitar fəlakətlə üzləşdiyini bildirib. O, Azərbaycanın 30 minə yaxın vətəndaşını itirdiyini, on minlərlə insanın yaralandığını və 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olduğunu qeyd edib. Macarıstanlı deputat münaqişənin həlli üçün ATƏT-in Minsk qrupunun fəaliyyətini, BMT və AŞPA-nın qətnamələrini xatırladaraq Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində bütün sənədlərin kağız üzərində qaldığını, beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən münaqişədən hələ də ən çox əziyyət çəkən tərəfin Azərbaycan olduğunu bildirib.



AŞPA-nın münaqişənin həlli məsələsinə müdaxiləsini məqsədəuyğun saymayan həmkarlarını qınadığını və onları başa düşməkdə çətinlik çəkdiyini deyən M.Cöncöşi insan hüquqlarının kütləvi şəkildə pozulması, qanlı münaqişələr və humanitar fəlakətlərlə bağlı Assambleyanın mövqe nümayiş etdirməsinin təşkilatın əsas hədəfi olduğunu bildirib və sadaladığı halların hər birinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində müşahidə edildiyini diqqətə çatdırıb.

Daha sonra BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini, AŞPA-nın 1416 və 1614 saylı qətnamələrini, həmçinin 2010-cu ildə NATO və Avropa Parlamenti tərəfindən qəbul edilmiş sənədləri xatırladan M.Cöncöşi bütün bu sənədlərdə Azərbaycan torpaqlarının işğalı faktının öz təsdiqini tapdığını qeyd edib. Çıxışının sonunda deputat belə qətnamələrin qəbulu ilə bir sırada onların icra mexanizminin işlənib hazırlanmasının zəruriliyini vurğulayıb və bu məqsədlə sanksiyaların tətbiqi məsələsinin də nəzərdən keçirilməsini təklif edib.

energetika

# Anım tədbiri keçirilib



**♦ Yanvarın 20-də "Azərenerji" ASC-də "20 Yanvar günü Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir" mövzusunda tədbir keçirilib.**

20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünə həsr olunmuş bu anım tədbiri xalqımızın azadlığı və torpaqlarımızın bölünməzliyi uğrunda canını qurban vermiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Tədbirdə qeyd olunub ki, 26 il əvvəl – 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş faciə nə qədər dəhşətli olsa da, xalqımızın mübarizə ruhunu qıra bilmədi. Məhz buna görə də biz 20 Yanvarı təkcə Ümumxalq Hüzn Günü kimi deyil, həm də hünər və qəhrəmanlıq günü kimi qeyd edirik. 20 Yanvar faciəsi ilə Azərbaycan xalqını qorxutmaq, milli oyanışın, Qarabağ uğrunda mübarizənin qarşısını almaq məqsədi daşıyan mənfur planlar baş tutmadı.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin istər həmin günlərdə, istərsə də Azərbaycan rəhbərliyinə qayıdışından sonra, 20 Yanvar hadisələri ilə bağlı gördüyü işlər, həmçinin, Prezident İlham Əliyevin müdrik və çoxşaxəli fəaliyyətində milli-mənəvi dəyərlərimizin qorunması və zənginləşməsi, azadlıq və müstəqillik, torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparmış insanlara, şəhid ailələrinə böyük qayğı göstərilməsi barədə ətraflı söhbət açılıb.

O da qeyd edilib ki, xalqımızın ağır sınaqlara məruz qaldığı qara yanvar günlərində energetiklər də fədakarlıqla işləyiblər. Respublika enerji sistemində olan çətinliklərə baxmayaraq, onlar bütün imkanlardan istifadə edərək həyati əhəmiyyətli obyektlərin dayanıqlı enerji təminatını həyata keçirə biliblər.

Tədbirdə digər çıxış edənlər xalqımızın həyatında və yaddaşında dərin iz qoymuş, onun sonrakı taleyinə güclü təsir göstərmiş hadisələr sırasında 1990-cı ilin 20 Yanvarının - Qanlı Yanvarın özünəməxsus yeri olduğunu vurğulayaraq, bu hadisəni təkcə çoxsaylı insan tələfatına, ölçüyəgəlməz mənəvi itkilərə və maddi dağıntılara səbəb olmuş faciə kimi deyil, həm də ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinin şərəf və qəhrəmanlıq səhifəsi kimi səciyyələndiriblər. Onu da qeyd ediblər ki, bu ictimai zorakılıq və hərbi vəhşilik xalqımızın milli oyanışını, onun azadlıq və müstəqillik arzularını boğmağa yönəlsə də, bir nəticə vermədi və əksinə, milli istiqlalın gerçəkləşdirilməsi uğrunda mücadiləni daha da gücləndirdi.

Milli şüurun və özünüdərkin oyanışı texniki təfəkkürün müstəqil şəkildə inkişafına da zəmin yaratdı. Ölkəmizin elektrik energetikası sahəsində yeni texnika və texnologiyaların tətbiqi üçün imkanlar açıldı. Nəticədə regionda ən müasir avadanlıqlarla və qabaqcıl texnologiyalarla təchiz olunmuş müstəqil elektrik enerjisi sistemi formalaşdı. Hazırda ölkəmiz özünün elektrik enerjisinə olan tələbatını tam ödəməklə yanaşı, qonşu dövlətlərin elektrik enerjisi təhlükəsizliyində də mühüm rol oynayır.

Çıxışlarda o da bir daha vurğulanıb ki, Qanlı Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib.

Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət müstəqilliyi daha da möhkəmlənib, ölkəmiz sürətlə inkişaf edib, ordumuz daha da güclənib. Uğrunda müqəddəs şəhidlərimizin canlarını qurban verdikləri müstəqil Azərbaycan inamla gələcəyə addımlayır.

Tədbirin sonunda 20 Yanvar hadisələrindən bəhs edən sənədli film nümayiş olunub.

## Taxtakörpü SES: dispetçer qrafikinə uyğun işləyir

**♦ Hazırda alternativ və bərpa olunan enerji mənbələrindən geniş istifadə edilməsi məsələsi bütün dünyanın diqqət mərkəzindədir. Mütəxəssislərin apardığı araşdırmalar təsdiqləyib ki, ölkəmizin müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində çoxlu sayda kiçik su elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Bu tipli su elektrik stansiyaları bir tərəfdən elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə, digər tərəfdən isə ətraf mühitin sağlamlaşdırılmasına imkan verir. Ölkəmizdə son illərdə istifadəyə verilən hidroenergetika qurğularından biri də ümumi gücü 25 MVt olan Taxtakörpü Su Elektrik Stansiyasıdır.**

"Azərenerji" ASC-nin Enerjinin İstehsalı idarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumatda bildirilir ki, üç hidroaqreqatın quraşdırıldığı stansiyada, dispetçer qrafikinə uyğun olaraq, 2015-ci il ərzində 32,5 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilib. Ötən ilin dekabr ayında isə burada elektrik enerjisi istehsalının həcmi 3,8 milyon kilovat-saata yaxın olub.

Məlumatda bildirilir ki, stansiya üzrə digər texniki-iqtisadi göstəricilər də qənaətbəxşdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, kiçik çaylarda SES-lərin tikintisi davam etdirilir. Gücü 1,5 meqavat olan "Balakən-1", "Balakən-2" kiçik su elektrik stansiyaları istismara tam hazırdır və bu stansiyalarda test rejimində elektrik enerjisi istehsal edilir. Gücü 1,6 meqavat olan "İsmayıllı-2", gücü 0,3 meqavat olan "Astara-1", ümumi gücü 3,6 meqavat olan "Oğuz" su elektrik stansiyalarının tikintisi başa çatmaq üzrədir.

Yeri gəlmişkən, Azərbaycanda ilk su elektrik stansiyası hələ 1880-ci illərin əvvəlində Gədəbəyin Qalakənd kəndində Şəmkirçayın üzərində Simens qardaşları tərəfindən misəritmə zavodunu elektrik enerjisi ilə təmin etmək məqsədilə tikilib.

# Azərbaycan İES: ötən ilin yekunları

**♦ Respublikamızda elektrik enerjisinin ən iri istehsalçısı olan «Azərbaycan İES» MMC-nin kollektivi 2015-ci ilin bütün texniki-istehsalat proqnozlarını yerinə yetirib. Hesabat dövründə enerji bloklarının və avadanlıqların texniki-istismar səviyyəsinin yüksəldilməsi, stansiyanın texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılması, yanacaq və enerji resurslarına qənaət edilməsi diqqət mərkəzində saxlanılıb.**

Stansiyadakı avadanlıqların payız-qış mövsümünə hazırlığının təmin olunmasına dair kompleks tədbirlər tam həcmdə yerinə yetirilib. Eyni zamanda texniki tələblərə uyğun olaraq aparılmış profilaktiki yoxlama və sazlama-sınaq işləri nəticəsində stansiyada enerji bloklarının və avadanlıqlarının dayanıqlı və qənaətli iş rejimləri də təmin edilib. Dispetçer yük qrafikinə əməl olunmaqla enerji istehsalı üzrə verilmiş tapşırıqlar da yerinə yetirilib. Bununla yanaşı əməliyyat heyəti tərəfindən avadanlıqların zədələnməsinə və sıradan çıxmasına gətirə biləcək qəza və imtina hallarına yol verilməyib.

Məhz bunun nəticəsidir ki, stansiya əməkçilərinin səyi ilə 2015-ci ildə enerji bloklarından 7 milyard 402,8 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilib.

Ötən il enerji bloklarının və avadanlıqların istismarı ilə yanaşı avadanlıq, bina və qurğularda təmir-tikinti və profilaktik yoxlama işləri aparılıb, ətraf mühitin mühafizəsi, yanğın, texniki təhlükəsizlik və əməyin mühafizəsi tədbirləri həyata keçirilməklə, mövsümə hazırlıq işləri görülüb.

Enerji bloklarının və avadanlıqlarının texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılması və dayanıqlı işinin təmin olunması məqsədilə bir sıra rejim-sazlama işləri həyata keçirilib, suhazırlama qurğusu, yanacaq təsərrüfatı, kompressor və azot-oksigen sahəsi üzrə avadanlıqlar, yükqaldırıcı kran və mexanizmlər təmir və təftiş edilib. Həmçinin stansiyada kabel təsərrüfatı, yağ açarları və ildırımdan mühafizə qurğularının vəziyyətinə yoxlama-baxış keçirilib. Yeraltı kommunikasiyalar və hidrotexniki qurğular, drenaj və sel suları kanalları saz vəziyyətə gətirilib. İstehsalat və yardımçı binalarda profilaktik təmir işləri aparılıb.

2016-cı ildə «Azərenerji» ASC-nin təsdiq etdiyi təmir qrafikinə uyğun olaraq stansiyada 4 və 7-ci enerji bloklarında əsaslı, 3 və 5-ci enerji bloklarında orta, digər enerji bloklarında planlı cari təmir aparılması nəzərdə tutulur. Bununla yanaşı transformatorlarda, 500 və 330 kV-lik APQ-də və onların müxtəlif avadanlıqlarında, eyni zamanda II "Abşeron" HX-nin reaktorunda əsaslı təmir işlərinin aparılması da planlaşdırılır.

Hazırda stansiyada dispetçer yük qrafikinə uyğun olaraq sutka ərzində 16-20 milyon kVt-saat elektrik enerjisi istehsal olunur.

**Yusif ƏLƏKBƏROV**



## DÜNYADAN SORAQLAR

*XORVATİYA*

### Yeni enerji bloku sınaq istismarı rejiminə keçib

**♦ «Rostex» Dövlət Korporasiyasının tərkibində olan «Texnopromeksport» Xorvatiya Respublikasındakı «Sisak» İES-də elektrik gücü 230 MV və istilik gücü 50 MV olan buxar-qaz blokunun kompleks sınaqlarını başa vurub.**

Bu əməliyyat buraxılış-sazlama işlərinin həyata keçirilməsində həlledici mərhələlərdən biridir. Bu mərhələdə nominal yüklə 3 sutka ərzində fasiləsiz işləmək imkanları nümayiş etdirilir.

Hazırda blok 30 günlük sınaq istismarı prosesindədir. Bu vaxt ərzində avadanlıqlar müxtəlif iş rejimlərində işləyəcək, nəzarət testləri və sınaqları, həmçinin müqavilənin şərtlərinə uyğun olaraq zəmanət sınaqları keçiriləcək.

«Texnopromeksport» «Sisak» İES-in yeni buxar-qaz enerji bloku tikintisinin baş podratçısıdır. O istifadəyə verildikdən sonra stansiyanın gücü 650 MVt-yə çatdırılacaq. 1976-cı ildə «Texnopromeksport» qaz-mazut yanacağı ilə işləyən, ümumi gücü 420 MVt olan iki blokdan ibarət stansiyanın birinci növbəsini istismara buraxıb.

*LİTVA*

### AES-in bağlanması işində tərəqqi var

**♦ V1 layihəsi (işlənmiş nüvə yanacağının aralıq anbarı) və V2/3/4 layihəsi (bərk radioaktiv tullantılarla rəftar və saxlanması) Avropanın Yenidənqurma və İnkişaf Bankının inzibatçılığı ilə İqnalina AES-in (İAES) istismardan çıxarılmasının dəstəklənməsi üzrə Beynəlxalq fond tərəfindən maliyyələşdirilir.**

İqnalina Atom Elektrik Stansiyasının istismardan çıxarılmasını Beynəlxalq dəstək fondunun Londonda keçirilən donor ölkələri məclisində İAES-V1 və V2/3/4 layihələrində irəliləyiş olduğu göstərilib.

AES-in istismardan çıxarılmasında bütövlükdə tərəqqinin olduğu qeyd edilib.

Son yarım ildə layihələrin həyata keçirilməsində mühüm nailiyyətlər yüksək qiymətləndirilib: V1 layihəsinin soyuq sınaqları başa çatdırılıb, V2/3/4 kompleksinin soyuq sınaqlarına başlanıb, işlənmiş nüvə yanacağının saxlanması üçün konteynerlərin təhlükəsizliyinin əsaslandırılması məsələsi həll edilib, noyabrın sonunda V1 layihəsi müqaviləsinə əlavə imzalanıb və bunun əsasında tərəflər əvvəlki və indiki iddialarından əl çəkiblər.

Məclisin gedişində Avropa Komissiyasının və Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələri İAES və podratçı arasında əldə olunan konstruktiv dialoqun vacibliyini vurğulayıb və araya gələn məsələlərin tezliklə həll edilməsinə hazır olduqlarını bildiriblər. Onlar qeyd ediblər ki, kompromis nəticəsində V1 layihəsinin kommersiya məsələləri müqavilənin dəyərində dəyişiklik aparılmadan həllini tapacaq.

Donorlar məclisi İqnalina AES-in istismardan çıxarılmasının müdafiəsi beynəlxalq fondunun rəhbəridir. Donor-ölkələr-Avropa Komissiyası, Avstriya, Belçika, Böyük Britaniya, Danimarka, Finlandiya, Fransa, Almaniya, İrlandiya, Lüksemburq, Niderland, Norveç, Polşa, İspaniya, İsveç və İsveçrədir.

*HİNDİSTAN*

### Reaktora nüvə yanacağı doldurulmasına başlanıb

**♦ «Kudankulam» Atom Elektrik Stansiyasının işçi heyəti birinci enerji blokunun reaktorunu nüvə yanacağı ilə yükləməyə başlayıb. Bu proses ilk dəfə olaraq Hindistan və Rusiya mütəxəssisləri tərəfindən yerinə yetirilir.**

Yanacağın yüklənməsi işləri ASE şirkətlər qrupu nümayəndələrinin texniki yardımı ilə avtomtik rejimdə aprılır.

Reaktora yanacağın doldurulmasına blokun istifadəyə verilməsinin bir ili uğurla başa çatandan və birinci planlı-sınaq təmiri keçirildikdən sonra başlanıb. Təmir işləri qurtardıqdan sonra baxılmaq üçün Hindistanın nəzarət orqanı olan AERB-yə təqdim olunacaq hesabat hazırlanıb.

«Hesabatlara baxıldıqdan sonra AERB nəticələri nəzərə alaraq 1 nömrəli blokun reaktoruna yanacaq doldurulmasına icazə verib. Bütün zəruri tədbirlərin həyata keçirilməsindən sonra «Kudankulam» AES Hindistanın enerji siteminə qoşulacaq», - deyə Cənubi Asiyada layihələr üzrə vitse-prezident Andrey Lebedev şərh verib.



«Kudankulam» Atom Elektrik Stansiyası

*CAR*

### AES-də təmizləyici qurğular yerləşdirilə bilər

**♦ Cənubi Afrikada içməli su qıtlığı hökm sürür və baş verən quraqlıq iqtisadiyyata təsir göstərib. Bu problemin həlli ilə əlaqədar Rosatom bir sıra təkliflər irəli sürüb, o cümlədən AES-lərdə quraşdırıla biləcək təmizləyici qurğular barədə fikir söyləyib.**

Keyptaunda (Cənubi Afrika Respublikası) «Nuklear Supply Chain» atom sahəsi tədarükçülərinin konrfnası keçirilib. Tədbir CAR-ın xarici tədarükçülərlə partnyorluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə təşkil edilib.

Konfransda Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA), NQSA assosiasiyasının, NECSA, NNP şirkətlərinin nümayəndələri, xarici investisiya, maliyyə, energetika injinirinq şirkətlərinin mütəxəssisləri iştirak ediblər.

«Rusatom» Oversiz İnk.» SC prezidentinin müşaviri Viktor Kolesnikov konfransda çıxışında Cənubi Afrikanın iqtisadi inkişafı üçün atom sahəsinin vacibliyini vurğulayıb. O, əməkdaşlığın inkişafında qətiyyətli olduqlarını, Rusiyanın rəqabətədavamlı təkliflərinin CAR-ın iqtisadiyyatı üçün əhəmiyyətindən söhbət açıb: «Rosatom Cənubi Afrika bazarındakı şirkətlərlə xeyli işləyib və biz ölkənin hansı çətinliklərlə üzləşdiyindən xəbərdarıq, indi yerli xüsusiyyətləri nəzərə almaqla biz öz təkliflərimizi hazırlamışıq».

Kolesnikov deyib ki, yeni atom quruculuğu iqtisadiyyatın bütün sahələrinin inkişafına təkan verə bilər. Rosatom lokallaşdırma proqramlarının reallaşdırılması sahəsində böyük təcrübəyə malikdir və yerli sənayenin inkişafının təşkilində Afrikaya hərtərəfli yardım göstərməyə hazırdır. «Sənayenin sürətli inkişafı iqtisadi yüksəlişə gətirib çıxarar, vergilər şəklində gəlir gətirər, əlavə iş yerləri yaranar. Son zamanlar biz görürük ki, bütün bunlar CAR hökuməti tərəfindən təklif olunan milli inkişaf planı ilə üst-üstə düşür», - deyə o bildirib.

«Rusatom Oversiz İnk.» SC-nin nümayəndəsi göstərib ki, AES kimi davamlı və etibarlı enerji bazası mənbəyi olmadan CAR-da mövcud sosial-iqtisadi durğunluğun qarşısını almaq çətindir. Rosatomun əvvəlcədən verdiyi qiymətə görə, Cənubi Afrikada nüvə sənayesi obyektlərinin yaradılması ilə AES tikintisi sahəsində hər bir iş yeri qarışıq sahələrdə, o cümlədən infrastrukturda, kommunal təsərrüfatlarında və s. çoxlu iş yeri yaradılmasına səbəb olacaq.

Rusiya və Cənubi Afrika Respublikasının ekspertlərini atom sənayesinin ən müxtəlif sahələrində, o cümlədən zənginləşdirilmiş uran tədarükündə, nüvə reaktorlarının yaradılması layihəsi çərçivəsində əməkdaşlıqda, izotoplar itehsalında uzun əməkdaşlıq təcrübəsi birləşdirir. Spikerin sözlərinə görə, CAR-da atom sahəsində 50 ildən artıq iş təcrübəsinə malik çoxlu mütəxəssis var, bununla belə, bir sıra yeni ixtisaslar da mövcuddur ki, onları nüvə quruculuğu proqramı çərçivəsində yaratmaq lazımdır.

*YAPONİYA*

### Blokların istismardan çıxarılması işinə yardım göstəriləcək

**♦ Rusiya Yaponiyada fəaliyyətinin məqsədəuyğun olmayan atom bloklarının istismardan çıxarılmasında bu ölkəyə hər cür yardım göstərməyə hazır olduğunu bildirib. Bu barədə «bek-end» sahəsində Rusiya atom texnologiyaları mövzusunda Tokioda keçirilən seminarda «Rosatom» Dövlət Korporasiyası başçısının müavini Kiril Komarov bəyanat verib.**

Yaponiyada ilk dəfə keçirilən seminar atom texnologiyalarının tətbiqi və inkişafı, «bek-end» (nüvə yanacaq silsiləsinin yekun mərhələsi) sahəsində Rusiyanın təcrübəsinə həsr edilmişdi.

İşlənmiş nüvə yanacağı (İNY) ilə, radioaktiv tullantılarla (RAT) rəftar, atom obyektlərinin istismardan çıxarılması və sonradan ərazilərin reabilitasiyası sahəsində hərtərəfli xidmət göstərən «Rosatom»un qabaqcıl şirkətlərinin nümayəndələri Rusiyanın atom sənayesi obyektlərində nüvə və radiasiya təhlükəsizlinin təmin edilməsi vəzifələrinin həllində, habelə xaricdə analoji layihələrin reallaşdırılmsında qazandıqları təcrübədən danışıblar.

Yaponiya tərəfindən seminarda bu ölkənin atom sahəsində qabaqcıl müəssisələrinin, o cümlədən Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyi yanında Təbii Ehtiyatlar və Energetika Agentliyinin elektroenergetika və qaz sənayesi departamentinin, Tokio energetika şirkəti nüvə departamentinin 100-dən artıq nümayəndəsi iştirak edib.

Tədbirin açılışında «Rosatom» Dövlət Korporasiyası baş direktorunun müavini – inkişaf və beynəlxalq biznes blokunun direktoru Kiril Komarov atom energetikası sahəsində Rusiya və Yaponiyanın əməkdaşlıq istiqamətlərindən danışıb. «Dinc atom sahəsində dünya lideri olan Rusiyanı və Yaponiyanı uzunmüddətli əməkdaşlıq birləşdirir. «Fukusima» AES-də baş verən faciəyə baxmayaraq, ölkədə atom energetikasını inkişaf etdirmək əzmində olan Yaponiya tərəfinin qərarını alqışlayırıq. Biz isə öz tərəfimizdən təkcə ənənəvi layihələrimiz üzrə deyil, həm də Rusiya uran məhsullarının Yaponiyaya tədarükündə fəal partnyorluq etməyə, «bek-end» sahəsində qarşılıqlı əlaqələri inkişaf etdirməkdə, təhlükəsizliyin təmin edilməsində, AES-lərin istismardan çıxarılmasında, radioaktiv tullantılarla, işlənmiş nüvə yanacağı ilə rəftarda, «Fukusima» AES-də baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında fəal iştirak etməyə hazırıq», -deyə o əlavə edib.

Kiril Komarov qeyd edib ki, bu seminar «Rovatom»un yaponiyalı həmkarları üçün təşkil etdiyi ilk tədbirdir. O, həmçinin əmin olduğunu bildirib ki, belə qarşılıqlı əlaqə formatı yaxşı ənənəyə çevriləcək və Rusiya-Yaponiya əməkdaşlığının inkişafında yeni perspektivlər açacaq.

Yaponiyanın Təbii Ehtiyatlar Agentliyi elektrik enerjisi və qaz departamenti nüvə münaqişəsinə reaksiya mərkəzinin direktoru Dzyunyiti Equti seminarın işini yüksək qiymətləndirərək, «bek-end» sahəsində Yaponiyanın qarşısında duran ən mühüm vəzifələri göstərərək deyib: «Bu gün ölkəmiz «Fukusima» AES-də baş verən qəzanın nəticələrinin aradan qaldırılması ilə əlaqədar xeyli məsələni həll etməklə məşğuldur. İşlənmiş nüvə yanacağının (İNY) çıxarılması ən böyük problem olaraq qalır. Biz yaxın ərazidə yaşayan əhalinin təhlükəsizliyini təmin etmək üçün çox iş görmüşük, əminik ki, yaranmış vəziyyətdən addım-addım da olsa, çıxacağıq. «Fukusima-1» AES-dəki faciə bizdən görünməmiş dərəcədə mürəkkəb vəzifələrin həyata keçirilməsini tələb edir. Düşünürəm ki, Yaponiya texnologiyaları bu vəzifələrin həlli üçün kifayət deyil: biz atom energetikası sahəsində müxtəlif ölkələrlə əməkdaşlıq etməliyik. Dəhşətli qəzaya məruz qalan ölkəmiz faciənin nəticələrinin aradan qaldırılması və dünyada atom enerjisinə etibarın bərpa edilməsi sahəsində böyük məsuliyyət daşıyır. Biz bu yolda bütün tədbirləri fəal surətdə həyata keçirəcəyik və ümid edirik ki, bu məsələlərin həllində Rusiya mütəxəssisləri bizə yardım göstərəcəklər».

Seminar iştirakçılarına «Rosatom» Dövlət Korporasiyasının beynəlxalq bazarda rəqabət üstünlüklərinə, nüvə energetikasının inkişafındakı roluna, «bek-end» sahəsində Rusiyanın dövlət siyasətinə, habelə İNY və RAT tipləri ilə rəftara həsr edilmiş məruzələr təqdim olunub. Radiasiya təhlükəsi olan obyektlərin istismardan çıxarılması, radiasiya ilə çirklənmiş ərazilərin reabilitasiyası sahəsində Rusiyanın təcrübəsi yapon mütəxəssislərində dərin maraq oyadıb.

«Rosatom» Dövlət Korporasiyasının İYN və RAT sahəsində dövlət siyasəti üzrə direktoru Oleq Kryukov «bek-end» istiqamətində əldə edilən nəticələrdən söz açıb: «RAT»la rəftar və radiasiya təhlükəsi olan obyektlərin istismarı sahəsində innovasiya texnologiyalarının işlənməsi və tətbiqi işində yüksək nəticələrə nail olmuşuq. İNY ilə rəftar sahəsindəki yeniliklər, o cümlədən yaş halda saxlanmadan quru saxlanmaya keçid, RAT-ların olmaması, onların basdırılmasının minimuma endirilməsi ilə əlaqədar mühüm nailiyyətlər qazanılıb. Biz bütün bu uğurlarımızı xarici partnyorlarımızla bölüşməyə hazırıq», - deyə o bildirib.

*UKRAYNA*

### İşçi çarxı sınaqdan keçirilib

**♦ Ötən ilin son günlərində Xarkovun «Turboatom» zavodunun hidroturbin sexində Kaxovka SES üçün hazırlanmış işçi çarxının funksional, yağ, möhkəmlik və hidravlik sınaqları keçirilib. Nəzarətdə olan bütün parametrlər tələblərə tam müvafiq gəlib və sifarişçi tərəfindən qəbul edilib.**

Tərəflər müvafiq təhvil-təslim aktını imzalayıblar. Dekabrın sonunda avadanlıq qablaşdırılaraq yola salınmağa hazır vəziyyətə gətirilib. Eyni zamanda həmin müddətdə yönəldici cihazın və turbinin modernləşdirilməsində digər hissələr hazırlanıb.

Kaxovka SES-də (2 №-li stansiya) «Turboatom» turbinin modernləşdirilməsini həyata keçirir. Yenidənqurmadan sonra hidroturbinin etibarlılığı və xidmət müddəti xeyli artırılacaq. Hazırlamadan və tədarükdən əlavə zavod şef-quraşdırma işlərini yerinə yetirəcək, buraxılış-sazlama işlərində, avadanlıqların istismara verilməsində iştirak edəcək.

Avadanlıqlar 2016-cı ildə tam tədarük olunacaq.

***Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev***

2 FEVRAL - GƏNCLƏR GÜNÜDÜR

# Gəncliyə qayğı gələcəyə qayğıdır

♦ **Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bu təbəqə dövlətimizin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində cəmiyyətin aparıcı qüvvəsinə çevrilib.**



...Hər xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla yanaşı, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar.

Tarixən müxtəlif imperiyaların, sivilizasiyaların qovuşduğu məkanda yaşayan Azərbaycan xalqının həyat qaydası olan mübarizlik ruhu onun xarakterinə və düşüncəsinə də hopub. Bu baxımdan, Azərbaycan gənci daima döyüş meydanlarında, zəfərlərlə böyüyüb, inkişaf edib, eyni zamanda böyük elmi ixtiraları, kəşfləri ilə dünya sivilizasiyasının inkişafına öz töhfəsini verib. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi də bu tarixi kökdən, bu gendən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Şanlı tariximizin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Azərbaycan gənci öz həyatını qurarkən ilk öncə müstəqil Azərbaycanın bu günü və sabahı haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Buna gənclərin yüksək potensialı, əldə etdikləri elmi bilikləri, güclü vətənpərvərlik hissləri tam imkan verir.

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olub. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu Öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli- mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir.

Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Hələ ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilib. Gənc nəslə diqqət və qayğı müstəqil dövlətimizin də ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi qısa vaxtda dövlət gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək, uğurla həyata keçirməyə başlayıb.

O vaxtdan dövlət gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində əməli işlər görülüb. Ümummilli Liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilib. Forumlarda ulu öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilib, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulub. 1996-cı il fevralın 2-də keçirilən I Forumda ulu öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoyub: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir". Ümummilli lider Heydər Əliyev I Forumdan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan edib.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla həyata keçirilən dövlət gənclər siyasəti gənclərin ölkə həyatının bütün sahələrindəki fəallığını daha da artırıb. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb, uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyətlərinin təşkili üçün sağlam mühit yaradılıb və hüquqi baza təkmilləşdirilib.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində olimpiya idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

**Sadıq QARAYEV**

## Son 10 ildə iqlim dəyişikliyinin nəticələri

♦ **Son 10 ildə Azərbaycanda, xüsusilə Bakıda və Abşeron yarımadasında çovğunların baş verməsi halları və intensivliyi artıb.**

Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutundan “Trend”ə verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında küləyin sürəti də artıb: "Covğunların baş vermə intensivliyinin və küləyin sürətinin artmasının səbəbi dünyada baş verən iqlim dəyişiklikləri ilə izah edilir. Azərbaycanda çovğunlar daha çox ölkənin şərq hissəsində, yəni Xəzər dənizi sahili boyunca baş verir. Ancaq güclü küləklər ölkənin qərb hissəsində də müşahidə edilir".

İnstitutdan qeyd edilib ki, Gürcüstan ərazisindən Azərbaycana daxil olan qərb küləkləri ölkənin şərq hissəsinə gəlib çatana qədər öz sürətini bir qədər azaldır: "Azərbaycanın qərb hissəsində - Qazax, Zaqatala, Balakən və s.-də çovğunlar əsasən qərb istiqamətli küləklər nəticəsində, Bakıda və Abşeron yarımadasında şimal və şimal-qərb küləkləri nəticəsində baş verir”.

İnstitutdan əlavə edilib ki, mütəxəssislər çovğun, güclü külək, qasırğa, intensiv yağış, leysanın Azərbaycan üçün xarakterik olan meyarlarını təyin etməkdən ötrü araşdırmalar aparacaqlar: "İnstitutda bununla bağlı araşdırmaları 2016-2018-ci illər ərzində aparmaq nəzərdə tutulur. Araşdırmalar zamanı həmin təbiət hadisələri Azərbaycan şəraiti, iqlim dəyişmələri nəzərə alınmaqla öyrəniləcək. Azərbaycanın özünün çovğun, güclü külək, qasırğa, intensiv yağış, leysanın baş verməsi ilə bağlı dəqiq meyarları yoxdur. Sovet dövründə SSRİ məkanındakı göstəriciləri əsas götürürdük. Amma o zaman bu göstəricilər Şərqi Avropa düzənliyi nəzərə alınmaqla hesablanırdı. Buna görə də onlar Azərbaycan üçün xarakterik olmurdu. Dünyada da belə hesab edilir ki, saniyədə 25 metrdən çox olan külək çovğun hesab edilir. Çovğun olan zaman güclü küləklə yanaşı, güclü yağış, daha çox isə qar yağır”.

Xatırladaq ki, Azərbaycanda ən isti yanvar ayı 1966-cı ildə olub. 1972-ci ildə yanvar ayında Bakıda ən soyuq hava qeydə alınıb. Son 10 ildə isə Bakıda yanvar ayında ən soyuq hava 2008-ci ildə qeydə alınıb.

İNCƏSƏNƏT

# Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilən “Əbədi ezamiyyət” sənədli filminin təqdimatı olub

*Layihənin rəhbəri və filmin baş prodüseri Arzu Əliyeva təqdimat mərasimində iştirak edib*

♦ **Yanvarın 22-də Nizami Kino Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanan “Əbədi ezamiyyət” sənədli filminin və “Qərib məzarlar” kitab-albomunun təqdimat mərasimi keçirilib.**



Layihənin rəhbəri və filmin baş prodüseri Arzu Əliyeva təqdimat mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, filmin nümayişindən əvvəl layihə haqqında söhbət açılıb. Bildirilib ki, “Əbədi ezamiyyət” filmi Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ilin yanvarında parlament sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam etdiyi nümayəndə heyətinin keşməkeşli taleyindən bəhs edir.

Yaradıcı heyət filmin hazırlanması üçün ilyarım müddətində Bakı, Tbilisi, Moskva, Sankt-Peterburq və Paris şəhərlərindəki arxivlərdə araşdırmalar aparıb, bu şəhərlərdə video və fotoçəkilişlər edib, Fransada Azərbaycan mühacirəti ilə bağlı tədqiqat aparan alimlərlə görüşləri və söhbətləri lentə alıb.

“Qərib məzarlar” kitab-albomu isə 1919-cu ildə Parisə ezam olunmuş Azərbaycan nümayəndə heyətinin, eləcə də ötən əsrin 20-ci illərində bolşevik təqibindən yaxa qurtarmaq üçün Fransaya üz tutan soydaşlarımızın bu ölkədəki taleyi və məzarları barədə ilk məlumat toplusudur. “Əbədi ezamiyyət” sənədli filmi və “Qərib məzarlar” kitab-albomunun baş məsləhətçisi tanınmış diplomat Ramiz Abutalıbovdur.

Təqdimat mərasimində bu layihənin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür bildirilib.

Vurğulanıb ki, Azərbaycan xalqı müstəqilliyə çatmaq, bugünkü uğurlara nail olmaq üçün keşməkeşli bir tarixi yol keçib, bu yolda çoxlu qurbanlar verib, uzun illər gərgin mübarizə aparmalı olub. Nəticədə 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edilib. Lakin gənc respublikanın dünya birliyi tərəfindən tanınması o qədər də asan başa gəlməyib. Məlum olduğu kimi, Birinci Dünya müharibəsinin başa çatması ərəfəsində beynəlxalq aləmdə gedən qlobal proseslərə siyasi qiymət vermək məqsədilə Paris Sülh Konfransının çağırılması qərara alınıb.

Azərbaycan Xalq Cümhuriyyəti də xalqımızın milli dövlət quruculuğu sahəsində gördüyü işlər barədə məlumat vermək, yeni dövlətin məqsəd və məramını dünya liderlərinin diqqətinə çatdırmaq, xüsusən Azərbaycanın müstəqilliyinin beynəlxalq birlik tərəfindən tanınmasına nail olmaq məqsədilə 1919-cu ilin yanvarında Paris Sülh Konfransına nümayəndə heyəti göndərib. Təxminən bir illik mübarizədən sonra Paris Sülh Konfransı 1920-ci ilin yanvarında Azərbaycanın müstəqilliyini de-fakto tanıyıb və bu mühüm uğur yanvarın 14-də Bakıda böyük bayram təntənələri ilə qeyd edilib.



Lakin bir neçə ay sonra bolşevik Rusiyasının hərbi müdaxiləsi ilə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verib və Paris Sülh Konfransında iştirak edən nümayəndə heyəti Vətənə dönə bilməyib. Parisə müvəqqəti səfər əbədi ezamiyyətə çevrilib.

Heç kimə sirr deyil ki, 70 illik sovet dövründə Paris Sülh Konfransına göndərilmiş nümayəndə heyəti və onun xidmətləri barədə danışmaq yasaq olunub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin bu səhifəsi də araşdırılmağa başlayıb, hətta ağır bərpa-quruculuq işləri aparılan 1990-cı illərin əvvəllərində bu dövlətin müstəqilliyi uğrunda həyatını qurban verənlərin xidmətləri unudulmayıb.

Azərbaycan tarixinin yaşadılması, ölkəmizin tərənnümü, xeyirxah və humanitar layihələrin həyata keçirilməsinə daim xüsusi diqqət yetirən Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan sənədli film və kitab-albom mühüm layihə kimi dəyərləndirilib.

Qeyd edilib ki, “Əbədi ezamiyyət” filmi Bakı Media Mərkəzinin Arzu Əliyevanın baş prodüserliyi ilə çəkdiyi ikinci sənədli filmdir. “Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu” adlı ilk sənədli film 2015-ci ilin mayında yerli televiziya kanalları vasitəsilə Azərbaycanda və “National Geographic” kanalı ilə 26 ölkədə nümayiş olunub.

Sonra film təqdim olunub.

Ekran əsərindən göründüyü kimi, Azərbaycanı Paris Sülh Konfransında təmsil edənlərin hamısı eyni tale yaşayıb – yad ölkə, nisgilli ömür, qərib məzar... Ünvan Fransa kimi cəlbedici ölkə, Paris kimi gözəl şəhər olsa belə...

“Əbədi ezamiyyət” sənədli filmi Azərbaycanın müstəqillik tarixinin nisbətən az öyrənilən daha bir qaranlıq səhifəsinə işıq salır, xalqımızın və dövlətimizin bugünkü uğurlara çatmaq üçün keçdiyi keşməkeşli tarixə qürur hissi ilə baxmağa imkan verir.

Bir saatadək davam edən film böyük maraqla izlənilib. Bu ekran əsəri 1993-cü ilin dekabrında ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Fransaya ilk rəsmi səfəri zamanı Paris yaxınlığındakı Sen-Klu qəbiristanlığına gedərək Paris Sülh Konfransının iştirakçısı olmuş Əlimərdan bəy Topçubaşovun və Ceyhun Hacıbəylinin qərib məzarlarını ziyarəti ilə yekunlaşır.

Filmdə vurğulanır ki, bundan sonra Azərbaycan Respublikası Fransadakı istiqlal mücahidlərinin qərib məzarlarına sahib çıxıb. Eyni zamanda, illərdən bəri baxımsız qalan bu qəbirlərin itib-batmasının qarşısı məhz Heydər Əliyev Fondunun dəstəyi ilə alınıb.

Bu xeyirxah layihəyə dəstək verənlərə ancaq sonsuz minnətdarlıq, Fransadakı qərib məzarlarda uyuyanların ruhuna isə “Məkanınız cənnət olsun!” demək düşür.

XƏBƏR XƏTTİ

## “Yunayted Kredit Bank” və “NBCBank”ın lisenziyaları ləğv edilib

♦ **Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 25 yanvar 2016-cı il tarixli, 06/1 və 06/3 nömrəli qərarları ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə “Yunayted Kredit Bank” ASC və “NBCBank” ASC-nin bank lisenziyaları ləğv edilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın məlumatında deyilir. “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 26.01.2016-cı il tarixdən banklara müvəqqəti inzibatçı təyin edilib.

Azərbaycan Respublikası Mərkəzi Bankı bildirir ki, “NBCBank” ASC və “Yunayted Kredit Bank” ASC-də Əmanətlərin Siğortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək.

## “ExpressPay”dan müştərilərə pulsuz danışıq dəqiqələri

♦ **ExpressPay ödəniş terminalları vasitəsilə Ulduzum abunəçiləri, “Bakcell” nömrələrinə minimum 2 AZN ödəniş etdikdə 2 dəqiqə, minimum 3 AZN yüklədikdə 3 dəqiqə, 5 AZN və daha çox yüklədikdə isə 5 dəqiqə pulsuz şəbəkədaxili danışıq vaxtı hədiyyə qazanacaqlar.**

“Expressbank”dan AZƏRTAC-a bildiriblər ki, müştərilər ətraflı məlumatı bilmək üçün 830 yazıb, 5555 nömrəsinə pulsuz SMS göndərə bilərlər.

“ExpressPay” ödəniş terminalları üzrə müştəri xidmətini artırmaq məqsədilə “Qaynar xətt” yaradılıb. Artıq müştərilər 24 saat ərzində istənilən təklif, şikayət və ya texniki nasazlıq barədə (055) 5000 132 nömrəsinə zəng vura və ya WhatsApp vasitəsilə mesaj yaza bilərlər.

Ətraflı məlumatı 132 məlumat mərkəzindən, www.expressbank.az saytından və ya bankın rəsmi facebook səhifəsindən *www.facebook.com/Expressbank* əldə etmək olar.

CƏMİYYƏT

# Daha bir qəzetin adı Mətbuat Şurasının “qara siyahı”sına salınıb

♦ **Yanvarın 27-də Azərbaycan Mətbuat Şurasının (MŞ) reket jurnalistikaya qarşı mübarizə komissiyası növbəti iclasını keçirib.**

Mətbuat Şurasından AZƏRTAC-a bildiriblər ki, komissiyanın sədri, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə iclası açaraq müzakirəsi tövsiyə olunan məsələlər barədə məlumat verib. O, 21 məsələdən altısının Şuranın şikayətlər üzrə komissiyası, digərlərinin isə MŞ Katibliyi tərəfindən təqdim edildiyini deyib.

Əvvəlcə komissiyanın son iclasının rəyləri müzakirə olunub. Qeyd edilib ki, “Xalq tribunası” qəzetinin fəaliyyətində etik prinsiplərə sayğısızlıq, şərəf və ləyaqətin təhqirinə, işgüzar nüfuzun ləkələnməsinə yönələn məqamlar üstünlük təşkil etməkdədir. Buna görə də həmin kütləvi informasiya vasitəsinin adının Şuranın “qara siyahı”sına salınması məntiqi sayılıb.

Komissiya qəzet barədə ilkin müzakirədən sonra Mətbuat Şurasına Abşeron Dövlət Arxiv İdarəsindən ünvanlanan şikayətdə ifadəsini tapan məqamların da buna əsas verdiyi qənaətinə gəlib.

İclasda şikayətlər üzrə komissiyanın pia.az, azfakt.az, azerinfo.org, reportyor.tv saytları barədə rəyinə də münasibət bildirilib. Məsələ ilə bağlı bir sıra nüansların araşdırılma mərhələsində olduğu göstərilib. Komissiya bunu əsas götürərək məsələyə araşdırma başa çatdıqdan sonra yenidən qayıtmağı məqbul sayıb.

Komissiya digər şikayətlər barədə də müvafiq rəylər çıxarıb.

TƏBİƏT

# Yanvar ayı nadir astronomik hadisə ilə başa çatacaq

♦ **Bir neçə gündən sonra başa çatacaq yanvar ayının sonunda “planetlərin paradı” deyilən nadir astronomik hadisə baş verəcək.**

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, mütəxəssislərin fikrincə yanvarın 31-də bu hadisəni adi gözlə müşahidə etmək mümkün olacaq. Həmin vaxt Ayın ölçüləri azaldığına görə onun işığı müşahidələrə mane olmayacaq. Günəş çıxana yaxın (Bakı vaxtilə saat 8:30-da) üfüqdə Günəş sisteminin beş planetini və onlara “qoşulmuş” Ayı görmək mümkün olacaq. Şimal yarımkürəsində yaşayan bütün insanlar planetlərin 2016-cı il paradına tamaşa edə bilərlər.

Alimlər astronomiya həvəskarları arasında geniş yayılmış “planetlərin paradı” anlayışını bu məlumatı dəqiqləşdirərək bildirirlər ki, əslində “planetlərin paradı” dedikdə, Günəş sisteminin bir neçə planetinin göy qübbəsinin kiçik bir sahəsində toplaşması nəzərdə tutulur.

Builki paradda yalnız beş planet “iştirak edəcək”. Yanvarın 31-də Əqrəb və Qız bürcləri boyunca beş planet düzüləcək – Yupiter, Saturn, Mars, Venera və Merkuri.

Xatırladaq ki, Yer kürəsinin sakinləri sonuncu dəfə bu hadisəni 2004-cü ilin dekabrı – 2005-ci ilin yanvarında müşahidə ediblər. 2161-ci il mayın 19-da isə Yer kürəsinin sakinləri Günəş sistemi planetlərinin hamısının iştirak edəcəyi böyük paradı görə biləcəklər.

## Bakı Olimpiya Stadionu 2015-ci ilin ən yaxşı idman qurğusu seçilə bilər

♦ **UEFA-nın rəsmi xəbər tərəfdaşı olan “StadiumDB” saytı tərəfindən sorğu keçirilir.**

AZƏRTAC xəbər verir ki, sorğuya əsasən, 15 ölkədən 22 stadion 2015-ci ilin ən yaxşısı adını qazanmaq üçün mübarizə aparır. Sorğu həm ictimaiyyət, həm də münsiflər heyəti arasında keçirilir. “Bakı-2015” birinci Avropa Oyunlarının açılış və bağlanış mərasimlərinə ev sahibliyi edən Bakı Olimpiya Stadionu dünya səviyyəli idman qurğuları sırasındadır.

Sorğuda səs vermək üçün ***http://stadiumdb.com/competitions/stadium_of_the_year_2015*** linkinə daxil olub ən yaxşı 5 stadionu 5 müxtəlif xal ilə dəyərləndirmək lazımdır.

**İTMİŞDİR**

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən ***Rəhimov Nimət Allahverdi oğluna*** verilmiş 5613B nömrəli və ***Feyzullayev Elbrus Polad oğluna*** verilmiş 1036 B nömrəli torpaq mülkiyyətinə dair şəhadətnamə itdiyi üçün ***etibarsız sayılır.***

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi “Abşeron REŞ” MMC-nin baş mühəndisi-direktor müavini

**ZARİK HƏMDULLA OĞLU RƏŞİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi “Abşeron REŞ” MMC-nin Abşeron Şəbəkə Rayonunun dispetçer xidmətinin rəisi

**FİRUZ NADİR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin Mərkəzi Dispetçer İdarəsinin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer xidmətinin böyük dispetçeri Ruslan Rəşidova, atası

**ZARİK HƏMDULLA OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin Mərkəzi Dispetçer İdarəsinin rəhbərliyi və kollektivi “Abşeron REŞ” MMC-nin Abşeron Şəbəkə Rayonunun dispetçer xidmətinin rəisi

**FİRUZ NADİR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Abşeron REŞ” MMC-nin rəhbərliyi və kollektivi müəssisənin baş mühəndisi-direktor müavini

**ZARİK HƏMDULLA OĞLU RƏŞİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Abşeron REŞ” MMC-nin rəhbərliyi və kollektivi Abşeron Şəbəkə Rayonunun dispetçer xidmətinin rəisi

**FİRUZ NADİR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Sumqayıt REŞ” MMC-nin rəhbərliyi və kollektivi “Abşeron REŞ” MMC-nin baş mühəndisi-direktor müavini

**ZARİK HƏMDULLA OĞLU RƏŞİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Mingəçevir REŞ” MMC-nin rəhbərliyi və kollektivi “Abşeron REŞ” MMC-nin baş mühəndisi-direktor müavini

**ZARİK HƏMDULLA OĞLU RƏŞİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN.**

*Təsisçi:* **“Azərenerji” ASC**
*Naşir:* **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

*Baş redaktor:* **Elşən ƏLİYEV**



***Redaksiyanın ünvanı:*** AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
***Telefonlar:*** (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 1000

Çapa imzalanıb: 27 yanvar 2016-cı il, saat 18.30.
***Məsul növbətçi:*** **S.QARAYEV**